# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib



Avqustun 17-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. MSK Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 4 avqust 2016-cı il tarixli iclasının protokolu təsdiq olunub.

Sonra Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın seçki komissiyalarına aid olan hissədə icrası ilə əlaqədar, habelə 2016-cı il sentyabrın 26-na təyin edilən ümumxalq səsverməsinin (referendumun) təşkilinin daha da təkmilləşdirilməsi məqsədilə cari ildə yenidən formalaşdırılmış dairə seçki komissiyalarının bütün üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün yeni maarifləndirmə tədbirlərinin təşkil edilməsi məsələsinə baxılıb. Komissiya üzvlərinin müzakirəsindən sonra tərtib edilən tədris proqramına uyğun olaraq 2016-cı il avqustun 18-də Bakı şəhərində dairə seçki komissiyalarının sədrləri üçün müşavirə, avqustun 22-24-də isə dairə seçki komissiyalarının katibləri, üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün seçki hüququ üzrə ixtisaslaşdırılmış kursların keçirilməsi qərara alınıb.

İclasda 2016-cı il sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsində (referendumda) "Yeni Azərbaycan" referendum üzrə təşviqat qrupunun qeydə alınması məsələsinə də baxılıb və MSK üzvləri tərəfindən aparılan müzakirələrdən sonra sözügedən təşviqat qrupu komissiyanın qərarı ilə qeydə alınıb.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.